# ATEİSTLƏRİN İSTİFADƏ ETDİYİ TERMİNLƏRƏ QISA CAVABLAR

WWW.SUNNA.AZ

# 1. DİNİ İNKARLA BAĞLI TERMİNLƏR

## ATEİZM

Tanrının və ya ilahi varlığın mövcudluğunu inkar edir.

### Cavab / Əks arqument:

Kainatın səbəbsiz yaranması məntiqsizdir; səbəbsiz nəticə mümkün deyil. Kainatın başlanğıcı var. Başlanğıcın səbəbi olmalıdır. Məkan və Zamanın fövqundə bir səbəb, hər şeyi başladıb. Bing Bang'dən sonra əmələ gəlmiş fiziki və kimyəvi sabitlərin cüzi pozulması, gördüyümüz hər şeyi yox edərdi. Onların var edəcək qədər uyğunluğunun təsadüfən olma ehtimalı isə 1/1010263 qədər kiçikdir ki, bu kiçikliyi nə ağıl, nə də ki, ən güclü komputerlər təsəvvür edə bilmir.

## AQNOSTİSİZM

Tanrının varlığının və yoxluğunun bilinməyəcəyini iddia edir.

### Cavab / Əks arqument:

İnsan düşüncəsi və kainatdakı dəlillər vasitəsilə Tanrının varlığını anlamaq mümkündür; elm və fəlsəfə Tanrını inkar etməyə deyil, tanımağa kömək edir. Qur'an insanın düşünməsi üçün “əlamətlər” barədə danışır.

## ANTİTEİZM

Tanrı ideyasına və dinin özünə qarşı fəal mübarizə aparır.

### Cavab / Əks arqument:

Din insanın əxlaq, mənəviyyat və məqsəd anlayışını inkişaf etdirir; Tanrıya qarşı çıxmaq, əxlaq və məna sahəsində boşluq yaradır.

## DEİZM

Tanrı kainatı yaradıb, amma ona qarışmır.

### Cavab / Əks arqument:

Yaradılış məqsədsiz ola bilməz; məqsəd varsa, müdaxilə də var. Quranda Allah hər şeyi əbəs, səbəbsiz yaratmaqdan özünü münəzzəh edir. (Muminun 115-116)

## PANTEİZM

Tanrı ilə kainatı eyni sayır.

### Cavab / Əks arqument:

Yaradanla yaradılan eyni ola bilməz; fərqlilik zəruridir. Tur surəsi 35-də bu məsələ səbr-təqsim, shortlisting qaydası ilə məntiqi formada inkar edilir.

## PANENTEİZM

Tanrı həm kainatın içində, həm də ondan üstündür.

### Cavab / Əks arqument:

Tanrı zatən məkanla məhdudlaşmaz, O məxluqun fövqundədir, ucadır, amma varlığını hər yerdə təcəlli etdirir və hər şeydən xəbərdardır.

## HUMANİZM

İnsan ağlı və dəyərləri Tanrısız da kifayətdir.

### Cavab / Əks arqument:

Əxlaqın mənbəyi obyektiv olmalıdır; insan dəyişkəndir. “Əgər haqq onların nəfslərinə uysaydı, göylər və yer pozular idi” (Muminun, 71).

## HENOTİZM

Tanrı ilə yanaşı digər ilahlar da var

### Cavab / Əks arqument:

Tanrı təkdir; digər varlıqlar yalnız yaradılmışdır. “Əgər göydə və yerdə Allahdan başqa tanrılar olsaydı, onların hər ikisi fəsada uğrayardı” (Ənbiya, 22).

## SEKULYARİZM

Dinin dövlət və ictimai həyatdan ayrılmasını tələb edir.

### Cavab / Əks arqument:

Əxlaqsız siyasət ədaləti dağıdar. Din cəmiyyətin əxlaq və ədalət sistemində əsas rol oynayır; dövlət və din bir-birindən tam ayrılmaz.

## LAİKLİK

Dövlət idarəsində dinin rolunu istisna edir.

### Cavab / Əks arqument:

Dəyərdən təmiz idarə sistemi ədaləti təmin edə bilməz. Peyğəmbərlər həm dini, həm ictimai rəhbər olmuşdur. İzlədiyimiz Fransa qanunları, Əndəlüsün dağılmasından və sonralar Şimali Afrikanın işğalından sonra Maliki fiqhindən götürülub.

## APOLOETİZM

Tanrı mövzusuna tam laqeyd münasibət.

### Cavab / Əks arqument:

Ən fundamental sualdan uzaq qaçmaq idrakı dayandırır. İnsan həyatında mənəvi və əxlaqi rəhbərlik olmadan doğru qərarlar çətin olur; laqeyd mövqe boşluq yaradır.

### İRRASİONALİZM
İnsan ağlı həqiqəti qavraya bilməz, inanc mənasızdır.

**Cavab / Əks arqument:**

Əgər ağıl həqiqəti dərk etməzsə, bu fikri söyləmək də mənasız olar. İnsan ağlı və məntiq Tanrının varlığını və kainatın məqsədini başa düşmək üçün istifadə edilə bilər. Quran onlarla ayədə düşünməyə dəvət edir.

# 2. FƏLSƏFİ ƏSAS ANLAYIŞLAR

### METAFİZİKA (ateist baxışda)
Bunun inkarı Maddi aləmdən kənar reallığın mövcudluğunu rədd edir.

**Cavab / Əks arqument:**

Maddi olan hər şeyin səbəbi və başlanğıcı var; səbəbsiz maddə ola bilməz. Metafizika kainatın məqsədi və yaradılış səbəbini izah edir, Tanrı mövzusunu anlamağa imkan verir.

### ONTOLOGİYA (materialist yanaşma)
Ruh, mənəvi və ilahi varlığın reallığını inkar edir.

**Cavab / Əks arqument:**

Şüur və mənəvi dəyərlər maddə ilə izah oluna bilməz. Varlığın mövcudluğu Tanrıya bağlanır; Tanrısız varlıq izahı natamamdır.

### EPİSTEMOLOGİYA (skeptik yanaşma)
Bilginin Tanrı olmadan əldə olunacağını iddia edir

**Cavab / Əks arqument:**

İnsan biliyi Tanrının yaratdığı məntiq və duyğular vasitəsilə formalaşır; Tanrı bilginin əsas mənbəyidir.

### AKSIOLOGİYA (sekulyar versiya)
Dəyərlərin mənşəyi Tanrısız, insan razılığına əsaslanır.

**Cavab / Əks arqument:**

İnsan razılığı dəyişkəndir, obyektiv dəyər yalnız sabit mənbədən gələ bilər.

## **FENOMENOLOGİYA** (ateist interpretasiyada)

Təcrübəni yalnız subyektiv şüurla məhdudlaşdırır, ilahi mənanı kənara qoyur.

### Cavab / Əks arqument:

Təcrübə özü mənanın qaynağı deyil, mənanı dərk edən şüur lazımdır. İnsan təcrübəsi Tanrının yaratdığı şüur və kainat çərçivəsində başa düşülür.

## **EGZİSTENSİALİZM** (ateist versiya)

Həyatın mənası Tanrısız da insanın öz seçimindən doğur.

### Cavab / Əks arqument:

Öz-özünə mənası olan həyat anlayışı ziddiyyətlidir – "mənanı" həyatdan kənarda axtarmaq olmaz.
"Biz sizi əylənmək üçün yaratmadıq" (Muminun, 115). Həyatın həqiqi mənası Tanrı ilə münasibətdədir; insan yalnız öz seçiminə etibar etsə, yanıla bilər.

## **NİHİLİZM**

Həyatın və dəyərlərin heç bir mənası yoxdur

### Cavab / Əks arqument:

Bu fikir insan davranışını və məqsədini mənasızlaşdırır – özü-özünü təkzib edir və boşluq yaradır. "Kim Allahdan üz döndərərsə, onun həyatı daralar" (Taha, 124).

## **MATERİALİZM**

Maddədən başqa reallıq yoxdur.

### Cavab / Əks arqument:

Maddə şüur və məqsəd yarada bilməz.

## **İDEALİZM** (sekulyar formada)

Maddənin reallığını azaldır, lakin ideyanı insan ağlı ilə eyniləşdirir.

### Cavab / Əks arqument:

Maddə və ideya bir-birini tamamlayır; yalnız insan düşüncəsinə bağlamaq qeyri-mümkündür.

## **MONİZM** (maddə əsaslı)

Bütün varlıq yalnız bir maddi mahiyyətdən ibarətdir.

### Cavab / Əks arqument:

Kainat həm maddi, həm mənəvi təbəqələrdən ibarətdir; yalnız maddəni qəbul etmək qeyri-kamildir.

### **DUALİZM** (ateist tənqiddə)

Ruh və maddə ayrılığını qəbul etmir, yalnız fiziki varlığı tanıyır.

**Cavab / Əks arqument:**

Ruhun fiziki ölümdən sonra davam edən təsiri bu fikri inkar edir.

### **PLURALİZM** (sekulyar interpretasiya)

Bütün varlıq formaları eyni səviyyədə və izahda qəbul edilir (ilahi təməl yoxdur).

**Cavab / Əks arqument:**

Ziddiyyətli varlıq formaları eyni səviyyədə həqiqət ola bilməz.

### **NATURALİZM**

Fövqəltəbii aləmi inkar edir, yalnız təbiət qanunlarını əsas tutur.

**Cavab / Əks arqument:**

Təbiət qanunları Öz-özünə var ola bilməz; qanun varsa, qanun qoyan da var.

## 3. BİLİK VƏ ELMƏ DAİR TERMİNLƏR

### **EMPİRİZM**

Biliyi yalnız hiss və təcrübəyə endirir, vəhy və metafizikanı istisna edir.

**Cavab / Əks arqument:**

Tanrı və metafizik həqiqətlər təcrübədən kənar mövcuddur; elmdən əlavə, fitrət (common sense) və məntiq də bilik mənbəyidir.

### **RASİONALİZM**

Biliyin yeganə mənbəyi ağıl sayılır; vəhy inkar olunur.

**Cavab / Əks arqument:**

Ağıl öz-özlüyündə yetərlidir desək, ağlın öz mənşəyi və məqsədi izahsız qalır. İslamda ağıl və vəhy bir-birini tamamlayır. Biri yol göstərir, digəri işıqlandırır.

## SKEPTİSİZM

Hər biliyin şübhəli olduğunu, tam həqiqətin bilinməyəcəyini deyir.

### Cavab / Əks arqument:

“Heç nə bilinmir” demək özü bilik iddiasıdır — özünü təkzib edir. İnsan biliyi Tanrının yaratdığı məntiqlə nəticəyə çata bilir.

## POZİTİVİZM

Yalnız elmi (empirik) bilik doğrudur; din və fəlsəfə boşdur.

### Cavab / Əks arqument:

Elmin öz prinsipləri (məsələn, səbəb-nəticə) fəlsəfi və metafizik təməllərə söykənir.

## SCİENTİZM

Elm bütün bilik növlərinin üstündədir; yalnız o həqiqəti müəyyənləşdirir.

### Cavab / Əks arqument:

Empirik (Təcrübi) Elm “necəni” izah edir edir, “niyə”ni deyil.

## RELATİVİZM

Həqiqət və əxlaq nisbi anlayışlardır, universal ölçü yoxdur.

### Cavab / Əks arqument:

Əgər hər şey nisbidirsə, bu cümlə də nisbidir. Bu, ziddiyyət yaradır. Nisbilik əqlən standarta qayıtmağı zəruri edir. O standart isə nisbilərin fövqündə bir şey olmalıdır. Həqiqət Tanrının təyin etdiyi prinsiplərdə dəyişməzdir.

## SUBYEKTİVİZM

Həqiqət insanın düşüncəsindən asılıdır.

### Cavab / Əks arqument:

Həqiqət insandan asılı olsaydı, ziddiyyətli fikirlər hamısı doğru olardı. “Onlar zənnə uydular, halbuki zənn həqiqətdən heç nə qazandırmaz” (Nəcm, 28).

## OBYEKTİVİZM (ateist interpretasiyada)

Həqiqət Tanrıdan müstəqildir, ilahi mənanı rədd edir.

### Cavab / Əks arqument:

Maddi obyektləri dərk edən şüur və məqsəd özü qeyri-maddi əsas tələb edir.

### REDUKSİONİZM

Mürəkkəb hadisələri yalnız fiziki səbəblərlə izah edir, mənəvi yönünü inkar edir.

**Cavab / Əks arqument:**

Məsələn, sevgi və mənəviyyat kimyəvi proseslərə endirilə bilməz.

### DETERMİNİZM

Hər şey əvvəlcədən səbəblərlə müəyyən olunub, azad iradə yoxdur.

**Cavab / Əks arqument:**

Əgər hər şey məcburidirsə, bu fikri seçmək də məcburi olmalı idi, ziddiyyətlidir. “Kim istəsə, iman gətirsin, kim istəsə, inkar etsin” (Kəhf, 29).

### İNDETERMİNİZM

Təsadüf və azad iradə əsasdır; Tanrının planı yoxdur.

**Cavab / Əks arqument:**

Təsadüf ardıcıl qanunlu kainatı izah edə bilməz. “Hər şey bir qədər (ölçü) ilə yaradılmışdır” (Qəmər, 49).

## 4. ƏXLAQ VƏ MƏNƏVİYYATLA BAĞLI TERMİNLƏR

### MORAL RELATİVİZM

Əxlaqın universal ölçüsünü inkar edir; “hər mədəniyyətin öz doğrusu var” deyir.

**Cavab / Əks arqument:**

Əgər hər şey mədəniyyətə görə doğrudursa, zülm və cinayət də bəraət qazana bilər. “Əgər haqq onların nəfslərinə uysaydı, göylər və yer pozular idi” (Muminun, 71).

### UTİLİTARİZM

Əxlaqın ölçüsünü “ən çox insana xoşbəxtlik gətirən” nəticə ilə müəyyən edir.

**Cavab / Əks arqument:**

“Xoşbəxtlik” subyektivdir; əxlaq nəticəyə deyil, niyyət və ədalətə əsaslanmalıdır. “Ən təqvalı olanınız Allah yanında ən dəyərlidir” (Hucurat, 13).

## HEDONİZM

Həyatın məqsədini zövq və ləzzətdə görür.

### Cavab / Əks arqument:

Zövq müvəqqətidir, mənanı təmin etmir; zövqə yönəlmiş cəmiyyətlər dağılır. “Onlar dünyəvi həyatı axirətdən üstün tuturlar” (İbrahim, 3).

## EQOİZM

İnsan yalnız öz mənafeyini güdməlidir.

### Cavab / Əks arqument:

Tam eqoizm sosial və mənəvi nizamı dağıdar. “Kim nəfsinin xəsisliyindən qorunsa, onlar nicat tapar” (Həşr, 9).

## ALTURİZM (sekulyar formada)

Başqalarının xeyrini Tanrıdan asılı olmadan əsaslandırmaq.

### Cavab / Əks arqument:

Tanrısız altruizm məntiqsizdir — niyə fədakarlıq etməliyik, əgər mənəvi məqsəd yoxdursa? “Kim Allah rizası üçün verərsə, onun mükafatı böyükdür” (Leyl, 17-20).

## SEKULYAR ETİKA

Əxlaq Tanrısız da mövcud ola bilər.

### Cavab / Əks arqument:

Tanrısız əxlaq nisbidir; sabit ölçü üçün sabit mənşə (Allah) lazımdır.

## AMORALİZM

Əxlaq anlayışını tam inkar edir; “yaxşı” və “pis” mənasızdır.

### Cavab / Əks arqument:

Əxlaq Tanrının buyruqları ilə təyin olunur; inkar boşluq yaradır.

## VİRTUE ETHİCS (Aristotel tərzi)

Əxlaq xarakterdən doğur, amma ilahi niyyət olmadan mənasız qalır.

### Cavab / Əks arqument:

Xarakter niyyətsiz dəyərləndirilə bilməz; niyyət isə məqsəd tələb edir. “Əməllər niyyətlərə görədir” (hədis).

# 5. ELM VƏ KOSMOSLA BAĞLI ARQUMENTLƏR

## **BIG BANG THEORY** (Böyük Partlayış nəzəriyyəsi)

Kainatın Tanrısız, fiziki qanunlarla öz-özünə başlamasını iddia edir.

**Cavab / Əks arqument:**

Hər başlanğıc səbəb tələb edir; "partlayış" səbəbsiz ola bilməz. Məkan və Zamanın fövqundə bir səbəb, hər şeyi başladıb. Bing Bang'dən sonra əmələ gəlmiş fiziki və kimyəvi sabitlərin cüzi pozulması, gördüyümüz hər şeyi yox edərdi. Onların var edəcək qədər uyğunluğunun təsadüfən olma ehtimalı isə1/1010263 qədər kiçikdir ki, bu kiçikliyi nə ağıl, nə də ki, ən güclü komputerlər təsəvvür edə bilmir.

## **COSMOLOGICAL ARGUMENT** (Kosmoloji arqument)

Ateistlər bu arqumenti zəiflətməyə çalışır, "kainat səbəbsiz ola bilər" deyirlər.

**Cavab / Əks arqument:**

"Yaranan hər şeyin səbəbi var" qanunu məntiqi zərurətdir; səbəbsiz varlıq absurddur. "Allah hər şeyin yaradıcısıdır" (Zumər, 62).

## **MULTIVERSE THEORY** (sonsuz saylı kainatlar nəzəriyyəsi)

Kainatın "təsadüfi uyğunluğunu" izah etmək üçün sonsuz kainatların mövcud olduğunu deyir.

**Cavab / Əks arqument:**

"Sonsuz kainatlar" fərziyyədir, dəlil yoxdur; özü Tanrını deyil, məqsədi daha mürəkkəb izahla əvəzləyir. Paralel kainatlar olsa idi, onların yaradılması Tanrının əsəri olardı.

## **FINE-TUNING ARGUMENT** (Tənzimləmə arqumenti)

Ateistlər bu incə nizamı "təsadüf və zərurət"lə izah etməyə çalışır.

**Cavab / Əks arqument:**

Fiziki sabitlərin bu qədər dəqiq uyğunluğu təsadüf ola bilməz. "O, hər şeyi ölçü ilə yaratdı" (Qəmər, 49).

## **ANTHROPIC PRINCIPLE** (Antropik Məqsəd)

"Biz buradayıq, çünki kainat bizə uyğun gəldi" – Tanrını aradan qaldırmaq cəhdi.

**Cavab / Əks arqument:**

"Uyğunluq" faktı səbəb deyil, nəticədir; məqsədyönlülük zəruridir.

### DARVİNİZM / NEO-DARVINIZM

Həyatın Tanrısız, təbii seçmə və mutasiyalarla yaranmasını iddia edir.

**Cavab / Əks arqument:**

Təbii seçmə məqsədli mexanizm deyil; məlumatlı DNT təsadüflə izah oluna bilməz. Təbii seçmə Tanrının yaratdığı qanunların nəticəsidir; Allah müdaxiləsini inkar etmir. Təbii seçmə və mutasiyalar yeni daha kamil sistemlər yaratmır, təmir edir və yamayır.

### ABIOGENEZ

Həyatın cansız maddədən təsadüfən yaranması iddiası

**Cavab / Əks arqument:**

Həyatın kimyəvi başlanğıcı üçün zəruri kodlaşdırma və məqsəd tələb olunur; bu, ağılsız maddə ilə mümkün deyil. "O, hər bir canlıyı sudan yaratdı" (Nur, 45).

### TRANSHUMANIZM

İnsan texnologiya ilə "ilahiləşə" bilər ideyası; Tanrısal asılılığı inkar edir.

**Cavab / Əks arqument:**

Texnologiya yaradılmış bir ağlın məhsuludur, yaradanın yerinə keçə bilməz. "İnsana elmdən yalnız az bir pay verilmişdir" (İsra, 85).

## 6. RUH, ŞÜUR VƏ MƏNƏVİ MÖVZULAR

---

### CONSCIOUSNESS IS BRAIN ACTIVITY (Şüur beyin fəaliyyətidir)

Şüurun sadəcə neyronların fəaliyyəti olduğunu iddia edir.

**Cavab / Əks arqument:**

"Mən" anlayışı fiziki deyil; beyin şüurun alətidir, mənbəyi deyil. Ruh bədənə "üfürülən" ilahi mahiyyətdir.

### EMERGENTISM (Emergentizm)

Şüur maddədən "öz-özünə" əmələ gəlir, amma Tanrıya ehtiyac yoxdur.

**Cavab / Əks arqument:**

"Öz-özünə yaranma" anlayışı məqsədsizdir; informasiya və niyyət maddədən çıxmaz. "O, hər şeyi bir ölçü ilə yaratdı" (Qəmər, 49).

### **MEANINGLESSNESS** (absurdizm)

Həyatın məqsədsiz və mənasız olduğunu deyir.

**Cavab / Əks arqument:**

Məqsədsizlik məntiqi olaraq mənasızlıq doğurur; insan təbiətən məqsəd axtarır. “Sizi boş yerə yaratdığımızı güman etdinizmi?” (Muminun, 115).

### **PANPSİXİZM**

Şüur hər yerdədir.

**Cavab / Əks arqument:**

Şüur Tanrı tərəfindən verilmişdir; kainatın hər yerində deyil, insan və canlılarda xüsusi varlıqdır.

### **FİZİKALİZM**

Ruh yoxdur.

**Cavab / Əks arqument:**

Ruh Tanrının yaratdığı qeyri-maddi varlıqdır; fiziki qanunlarla izah edilə bilməz.

## 7. DİNİ VƏ ETİK ARQUMENTLƏR

### **PROBLEM OF EVIL** (Şər problemi)

“Əgər Allah varsa, niyə dünyada pislik və əzab var?” sualı ilə Tanrının mərhəmətini inkar etməyə çalışır.

**Cavab / Əks arqument:**

Şər, azad iradənin nəticəsidir və yaxşılığın mənasını mümkün edir. “Bəzən xoşlamadığınız şey sizin üçün xeyirli ola bilər” (Bəqərə, 216).

### **DİNİ PLURALİZM** (dinlərin çoxluğu)

“Fərqli dinlər varsa, hansının doğru olduğunu necə bilərik?” deyərək vəhyi inkar edir.

**Cavab / Əks arqument:**

Həqiqətin çox forması ola bilməz; ziddiyyətli iddialar eyni anda doğru ola bilməz. “Allah yanında din İslamdır” (Ali-İmran, 19). Bütün səmavi dinlərin əsas 5 məqsədi (dinin, ağılın, malın, canın, namusun qorunması) eynidir.

## **DIVINE HIDDENNESS** (Tanrının gizliliyi)

"Tanrı varsa, niyə Onu görmürük?" arqumentidir.

**Cavab / Əks arqument:**

Tanrını görmək imtahanı və azad seçimi ləğv edərdi.

## **HELL ARGUMENT** (Cəhənnəm arqumenti)

Əbədi cəzanı ədalətsiz hesab edib Tanrının ədalətini sual altına alır.

**Cavab / Əks arqument:**

Əbədi cəza, Tanrının qəsdən və bilə-bilə inkarına qarşıdır — məsuliyyət ölçüsünə görədir.

## **DIVINE COMMAND THEORY** (Tanrının əmr teoriyası tənqidi)

"Əgər bir şey yalnız Tanrı əmr etdiyi üçün yaxşıdırsa, deməli əxlaq mütləq deyil" iddiasıdır (Euthyphro paradoksu).

**Cavab / Əks arqument:**

Tanrının mahiyyəti yaxşılığın özüdür; əxlaq Onun ad və sifətlərindən qaynaqlanır.

## **RELIGIOUS WARS** (dini müharibələr)

Dinin zorakılığa səbəb olduğunu iddia edir.

**Cavab / Əks arqument:**

Zorakılıq insan amilindən doğur, dinin mahiyyətindən deyil. Din bunu qadağan edir. "Kim bir insanı haqsız yerə öldürsə, bütün insanları öldürmüş kimi olar" (Maidə, 32).

## **HYPOCRISY OF BELIEVERS** (möminlərin riyakarlığı)

"Dindarlar özləri yaxşı deyil, deməli din saxtadır" arqumentidir.

**Cavab / Əks arqument:**

Dinin doğruluğu ona əməl edənlərin qüsurları ilə ölçülməz. "Bəzi insanlar iman gətirdiklərini deyirlər, lakin qəlbləri iman gətirməyib" (Hucurat, 14).

## **MORAL AUTONOMY** (əxlaqi müstəqillik)

İnsan əxlaqa özü qərar verə bilər, Tanrısal qaydaya ehtiyac yoxdur.

**Cavab / Əks arqument:**

Əgər hər kəs öz qaydasını seçsə, "doğru" və "səhv" anlayışı itər. "Əgər həqiqət onların arzularına tabe olsaydı, göylər və yer pozular idi" (Muminun, 71).

# 8. TARİXİ VƏ SOSİAL ARQUMENTLƏR

## RELIGIOUS EVOLUTION (dinin təkamülü)

Dinlərin insan qorxusu, təbiət hadisələri və sosial tələbat nəticəsində tədricən formalaşdığını iddia edir.

### Cavab / Əks arqument:

Bütün sivilizasiyalarda dinin "vahid Tanrı" anlayışı ilə başlaması bunu təkzib edir. "Hər ümmətə bir peyğəmbər göndərdik" (Nəhl, 36).

## RELIGION AS SOCIAL CONTROL (sosial nəzarət nəzəriyyəsi)

Din guya insanları itaətdə saxlamaq üçün hökmdarların yaratdığı mexanizmdir.

### Cavab / Əks arqument:

Əksinə, peyğəmbərlər bir çox hallarda xürafatı əmr edərək insanları istismar edən sistemlərə qarşı çıxıblar. Musa Fironun tanrı olmadığını isbat etdi və xalqını onun zülmündən heç bir təmənna güdmədən xilas etdi. İslam Peyğəmbəri və onun səhabə xəlifələri özlərindən sonra var dövlət miras etmədilər.

## RELIGION AS PSYCHOLOGICAL NEED (psixoloji ehtiyac)

Din insanın ölüm qorxusu və mənasızlıq hissindən doğur.

### Cavab / Əks arqument:

Qorxu bir hissdir, amma dini inancın məzmunu rasional dəyərləndirməyə əsaslanır. Qorxudulan hər bir şey fiziki və maddi olaraq insana elə bu dünyada ziyan verən

## OPIUM OF THE PEOPLE (Marxın nəzəriyyəsi)

Din xalqı sakitləşdirmək üçün "afyon" kimidir, yəni sosial ədalətsizliyi gizlədir.

### Cavab / Əks arqument:

Din təkcə səbir deyil, həm də ədalət tələb edir. Səbr etmək məsləhət və məfsədələrin ölçüb biçilməsinə görədir. Səbr öyrənmək, islah olmaq və güclənmək üçün verilən fasilədir.

## SCIENTIFIC REPLACEMENT THEORY (elmin dini əvəz etməsi)

"Elm inkişaf etdikcə dinə ehtiyac qalmır" fikridir.

### Cavab / Əks arqument:

Elm "necəni" izah edir, din "niyə"ni. Bir-birini əvəz etməz.

### **MYTH THEORY** (peyğəmbərlik mifi)

Dinlərin uydurma mif və simvolizmdən yarandığını deyir.

**Cavab / Əks arqument:**

Tarixi və sənədləşmiş vəhy hadisələri (məsələn, Qur'anın qorunmuşluğu) mif deyil. "Biz Zikri (Qur'anı) nazil etdik və Biz onu qoruyacağıq" (Hicr, 9).

### **POST-RELIGIOUS SOCIETY** (dinsiz gələcək nəzəriyyəsi)

Texnologiya və mədəniyyət artdıqca din yox olacaq.

**Cavab / Əks arqument:**

Əksinə, XXI əsrdə mənəvi boşluq və elmdən istifadə edərək baş verən zülmlə dini yenidən aktuallaşdırdı.

### **RELIGION CAUSES DIVISION** (din parçalayır)

"Din müharibələrə və nifrətə səbəb olur" arqumentidir.

**Cavab / Əks arqument:**

Parçalanma dinin özündən deyil, insanların fanatizmindən doğur. Stalin və Hitlər hər ikisi dindən uzaq insanlar idi. Din isə dəyərlər üzrə birləşməni əmr edir. "Hamınız bir ipə – Allahın ipinə sarılın, parçalanmayın" (Ali-İmran, 103).

## 9. MÜASİR İDEOLOJİ TERMİNLƏR

### POSTMODERNIZM

Həqiqət və mənanı nisbi sayır

**Cavab / Əks arqument:**

Həqiqət Tanrının müəyyən etdiyi prinsiplərdə sabitdir.

### KONSTRUKTİVİZM

Həqiqəti sosial quruluşla izah edir

**Cavab / Əks arqument:**

Həqiqət Tanrı tərəfindən təyin olunur; sosial quruluş onu dəyişə bilməz.

### ANTROPOMORFİZM

Tanrını insana bənzədir

**Cavab / Əks arqument:**

Tanrı insan forması deyil, ali və mükəmməl varlıqdır, bütün nöqsadnlardan və bənzərlərdən uzaqdır. Bütün sifətləri kamildir və keyfiyyətini heç kim bilmir.

### FATALİZM

Qədər təsadüfi təyin olunub

**Cavab / Əks arqument:**

Hər şey Tanrının iradəsi ilə baş verir; təsadüf yoxdur.

Hazırladı: Asim Məmmədov

20 Oktyabr 2025